**Xəlil İSMAYILOV**

*"Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyası"nın prezidenti, Bakı Dövlət Universiteti "Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, tarix elmləri doktoru, professor*

# GÖRKƏMLİ AZƏRBAYCAN ZİYALILARININ FORMALAŞMASINDA VƏ İNKİŞAFINDA RUSİYA MİLLİ KİTABXANASININ ROLU

**Açar sözlər:** *Sənəd-informasiya resursları, Rusiya Milli Kitabxanası, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası*

**Ключевые слова:** *Документирование и информационные ресурсы, Россиu Национальная библиотека, Центральная научная библиотека Азербайджанской Национальной Академии наук, Бакинский Государственный Университет научной библиотеки*

**Key words:** *Document and information resources, Russian National Library, Central Scientific Library of Azerbaijan National Academy of Sciences, Baku State University Scientific Library*

Rusiyanın böyük siyasi və elmi-mədəni mərkəzlərindən olan Sankt-Peterburq şəhərində 1795-ci ildə ilk olaraq "Sankt-Peterburq İmperator Kitabxanası" adı ilə fəaliyyətə başlayan Rusiya Milli Kitabxanası 1917-ci ildə Rusiya Ümumi Kitabxanasına çevrilmiş, 1925-ci ildən isə SSRİ Dövlət Ümumi Kitabxanası adlandırılmışdır. 1932-ci ildə Kitabxanaya görkəmli rus yazıçısı və publisisti Mixail Yevqrafoviç Saltıkov-Şedrinin adı verilmişdir. Rusiya Federasiyası prezidentinin 27 mart 1992ci il tarixli fərmanına əsasən SSRİ Dövlət Ümumi Kitabxanası Rusiya Milli Kitabxanası adlandırılmış və ölkədə milli kitabxana funksiyasını yerinə yetirməyə başlamışdır. Rusiyanın ilk ümumi kitabxanalarından olan Rusiya Milli Kitabxanası fəaliyyətə başladığı ilk günlərdən sosial mənşəyindən asılı olmayaraq hər kəsin üzünə açıq olmuşdur. Belə ki, Sankt-Peterburqda və ümumiyyətlə Rusiyada yaşayan, işləyən, təhsil alan və s. bütün insanlar gələrək öz informasiya tələbatlarının ödənilməsinə nail ola bilirdilər ki, bu da yarandığı ilk dövrdən Kitabxananın mütərəqqi demokratik istiqamətdə fəaliyyət göstərməsinə əyani misal kimi qiymətləndirilə bilər.



Məlumdur ki, Azərbaycanla Rusiya xalqları arasında həmişə sıx siyasi, iqtisadi, sosial, elmi və mədəni əlaqələr mövcud olmuş, xalqlarımız bir-birinin mühüm mədəni nailiyyətlərindən bəhrələnmiş və eyni zamanda bu prosesə öz töhfələrini verərək daha da zənginləşdirmişlər. Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının yüzlərlə görkəmli şəxsiyyətləri-elm, mədəniyyət, maarif, ictimai və siyasi xadimləri zaman-zaman Rusiyanın nüfuzlu ali məktəblərində təhsil almış, müxtəlif sahələrin peşəkar mütəxəssisləri kimi yetişərək öz vətənlərinə qayıtmış, bir çox hallarda isə təhsil aldıqları ali məktəblərdə qalaraq ciddi elmi fəaliyyətlə məşğul olmuş və bununla da Azərbaycan və Rusiya elm, maarif və mədəniyyətinə misilsiz töhfələr vermişlər.

Belə görkəmli şəxsiyyətlərin böyük bir qismi məhz Rusiyanın mühüm siyasi, elmi və mədəni mərkəzlərindən biri olan Sankt–Peterburqda oxumuş, yüksək təhsil almış, müxtəlif sahələrin kamil mütəxəssisləri kimi yetişmişlər. Həmin şəxsiyyətlər öz əməli fəaliyyətləri, misilsiz xidmətləri ilə Azərbaycan xalqının həyatında müstəsna rol oynamış, milli intibahın, maarif, elm və mədəniyyətin, sosial-iqtisadi və siyasi həyatın, milli dövlətçilik və ideologiyanın formalaşmasının və inkişafının əsas hərəkətverici təbəqəsi kimi taleyüklü funksiyalar daşımışlar.

Böyük minnətdarlıq hissi ilə qeyd etmək vacibdir ki, Azərbaycan ziyalılarının əhəmiyyətli bir hissəsinin dövrün qabaqcıl fikirli, mütərəqqi ruhlu, ümumbəşəri və demokratik dəyərlərə malik yüksək səviyyəli şəxsiyyətlər kimi yetişməsində Rusiyanın nəhəng elm və mədəniyyət mərkəzi kimi Sankt-Peterburq elmi və mədəni mühitinin, xüsusilə də bu mühitin ayrılmaz və mühüm

tərkib hissəsi olan kitabxanaların, ən başlıcası isə məhz bu şəhərdə yerləşən Rusiya Milli Kitabxanasının böyük rolu olmuşdur. Belə ki, həmin şəxsiyyətlər Sankt-Peterburqda təhsil alarkən daim bu zəngin elmi informasiya və mədəniyyət mərkəzində mütaliə etmiş, özlərinin geniş spektrli informasiya tələbatının ödənilməsini təmin etmək üçün Kitabxananın sənəd-informasiya resurslarından bəhrələnmiş, keçirilən yüksək səviyyəli tədbirlərdə iştirak etmişlər. Heç şübhəsiz ki, bütün bunlar həmin şəxsiyyətlərin geniş dünyagörüşünün, intellektual, elmi, mədəni, siyasi, estetik və bədii potensiallarının formalaşması və inkişafına öz böyük töhfələrini vermişdir.

Azərbaycan xalqının görkəmli şəxsiyyətlərindən biri, dünya elminin parlaq ulduzu, Azərbaycan xalqının bəşər elminə bəxş etdiyi ensiklopedik zəka sahibi, fövqəl elmi qüdrətə malik alim olan Mirzə Kazım Bəy uzun müddət Sankt-Peterburqda yaşamış, fəaliyyət göstərmiş, dünya elminə bəxş etdiyi bir çox qüdrətli kəşfləri özündə əks etdirən əsərlərin mühüm bir hissəsini də məhz burada yazmışdır. Böyük mütəfəkkir Mirzə Kazım Bəy şərqşünaslıq, ədəbiyyat, dil, fəlsəfə, tarix, hüquq, dinşünaslıq, etika, etimologiya, etnoqrafiya, pedaqogika, ədəbi tənqid və s. ilə əlaqədar dünya elmi üçün bu gün də böyük əhəmiyyət kəsb edən və nadir mənbələrdən hesab olunan bir sıra fundamental əsərlər yazmış, bir çox dünya dillərinin kamil bilicisi olmuş, eyni zamanda, görkəmli elm və təhsil təşkilatçısı kimi böyük şöhrət tapmışdır. Mirzə Kazım Bəy 1826-cı ildən Kazan Universitetində dərs deməyə başlamış və qısa zaman içərisində professor və fakültə dekanı vəzifələrinə seçilmişdir. 1845-ci ildən etibarən Mirzə Kazım Bəy öz ömrünü Sankt-Peterburq Universiteti ilə bağlamış, məhz burada dünya şöhrəti qazanmış, rus şərqşünaslıq elminin əsasını qoymuş, rus şərqşünaslarının böyük bir qisminin yetişdirilməsində yaxından iştirak etmişdi. 1855-ci ildə Universitetdə ayrıca Şərq fakültəsi yaradılarkən Mirzə Kazım Bəy onun ilk dekanı seçilmiş, və ömrünün axırına qədər bu vəzifədə çalışmışdı.Təsadüfi deyildir ki, görkəmli şərqşünas akademik V.V. Bartold Mirzə Kazım Bəyin bu sahədəki misilsiz xidmətlərini yüksək qiymətləndirərək göstərirdi: “Mirzə Kazım Bəy və O.İ.Senkovski öz mühazirələri ilə rus şərqşünaslığını yaratmışlar”.



Eyni zamanda qeyd etmək lazımdır ki, öz zəmanəsinin dahilərindən biri olan Mirzə Kazım Bəyin olduqca coşğun keçən həyatı həmişə kitabla, kitabxanalarla bağlı olmuş, O, səriştəli bibliofil kimi məşhurlaşmış və həddindən artıq zəngin bir şəxsi kitabxana da yaratmışdı. Mirzə Kazım Bəyin şəxsi kitabxanası o dövr Peterburq alimlərin içərisində ən böyük və zəngin şəxsi kitabxana sayılırdı. Onu da qeyd edək ki, Mirzə Kazım Bəy ensiklopedik biliyə malik olan böyük mütəfəkkir kimi kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq elmləri ilə də bağlı qiymətli fikirlər irəli sürmüş və əhəmiyyətli ümumiləşdirmələr aparmışdır. O, daim bu sahənin həm elmi-nəzəri, həm də təcrübi baxımdan inkişafı və normal fəaliyyət göstərməsi üçün qabaqcıl təcrübə metod və vasitələrinin tətbiqini zəruri hesab etmişdir. Bütün bunlar onun “Sankt-Peterburq İmperator Ümumi Kitabxanasında Şərq Əlyazmaları və Kalliqrafiyalarının təsviri” adlı məqaləsində öz əksini tapmışdır. Buradan da göründüyü kimi Mirzə Kazım Bəy Rusiya Milli Kitabxanasının (O vaxt Sankt-Peterburq İmperator Ümumi Kitabxanası adlanırdı) fəal oxucularından və həm də tədqiqatçılarından biri olmuşdur. Belə ki, bü gün də bu kitabxananın tarixinin araşdırılmasında, xüsusilə Şərq fondunun tarixinin və tərkibinin araşdırılmasında istər rus, istərsə də Azərbaycan tədqiqatçıları çox mühüm mənbə kimi məhz Mirzə Kazım Bəyin əsərlərinə istinad edilir.

Bütün bunlar bir daha göstərir ki, Rusiya Milli Kitabxanası Mirzə Kazım Bəy üçün çox doğma və əziz bir elm və mədəniyyət

mərkəzi olmuş və Mirzə Kazım Bəy bu Kitabxana ilə yaxından əməkdaşlıq edən və ondan bəhrələnən ən fəal şəxsiyyətlərdən biri kimi kitabxananın tarixinə düşmüşdür. Heç şübhəsiz ki, Mirzə Kazım Bəyin bir şəxsiyyət kimi elmi potensialının və dünyagörüşünün inkişafına Kitabxana öz əhəmiyyətli töhfələrini vermişdir.

Həmçinin, Azərbaycan xalqının böyük şəxsiyyəti, görkəmli dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, təcrübəli hüquqşünas və diplomat, Azərbaycan Respublikası Parlamentinin sədri olmuş Əlimərdan bəy Topçubaşov da Sankt-Peterburqda ali təhsil almış və Rusiya Milli Kitabxanasının fəal oxucularından biri kimi onun tarixində böyük azərbaycanlı oxucu olaraq qalmışdır. Sankt-Peterburq Universitetinin Hüquq fakültəsini bitirən Əlimərdan bəy Topçubaşov Azərbaycan tarixində özünəməxsus elmi-siyasi və ideoloji dəst-xəttinə, yüksək səviyyəli şəxsiyyət xarizmasına, fövqəl bilik və zəkaya, eyni zamanda əvəzsiz vətəndaşlıq və vətənpərvərlik mövqeyinə malik bir şəxsiyyət kimi özünə əbədi yer tutmuşdur. O, bütün həyatı və şüurlu fəaliyyəti boyu sülh və demokratiya yolunu bəşəriyyətin normal inkişafının prioritet prinsipi hesab etmiş, xalqların yalnız qarşılıqlı dinclik və dostluq şəraitinə əsaslanan əməkdaşlığını vacib hesab edərək bu istiqamətdə konkret əməli addımlar atmış və nəzəri fəaliyyətlə də məşğul olmuşdur. Qətiyyətlə deмək olar ki, Əlimərdan bəy Topşubaşovun belə böyük bilik, əqidə və düşüncəyə malik bir şəxsiyyət kimi formalaşmasında məhz Sankt-Peterburq elmi-mədəni mühitinin və bu mühitin ciddi tərkib hissəsi kimi əhəmiyyətli mövqeyə malik olan Rusiya Milli Kitabxanasından bəhrələndiyi bliklərin və dünyagörüşünün böyük payı vardır.

Azərbaycan xalqının görkəmli dövlət xadimi, böyük ziyalısı, Azərbaycan xalq Cümhuriyyətinin xarici işlər naziri olmuş Məmmədhəsən Hacınski sankt-Peterburq Texnoloji İnstitutunda təhsil almış, eyni zamanda, çox dərin mütaliəçi kimi M.Y. Şedrin adına



Rusiya Milli Kitabxanasının fəal oxucularından biri olmuşdur. Məmmədhəsən Hacınskinin geniş biliyə, dərin informativliyə, yüksək dünyagörüşünə malik bir şəxsiyyət kimi formalaşmasında bəhs edilən böyük kitabxananın xüsusi rolu olmuşdur. M.Hacınski görkəmli dövlət xadimi, qabaqcıl fikirli, mütərəqqi əqidəli bir şəxsiyyət olaraq Azərbaycan tarixində özünəməxsus yeri və çəkisi olan insanlardan biridir.

Rusiya Milli Kitabxanasının ən böyük azərbaycanlı oxucularından biri də görkəmli yazıçı, dramaturq, maarifçi və mütəfəkkir, dövlət xadimi Əbdürrəhim bəy Haqverdiyevdir. Qeyd etmək olduqca xoşdur ki, məhz Ə.Haqverdiyevin öz dövrünün parlaq şəxsiyyəti olaraq Azərbaycan ədəbiyyatında və ictimai həyatında özünəməxsus yenilikçi-demokratik mövqe nümayiş etdirən, elmə, marrifə, mədəniyyətə yüksək qiymət verərək, onun inkişafına və tərəqqisinə çalışan və bu yolda əvəzsiz xidmətlər göstərən böyük mütəfəkkir kimi yetişməsində məhz onun ali təhsil aldığı, həyatının ciddi bir dönəmini keçirdiyi möhtəşəm elmi-mədəni ab-havanın-Sankt-Peterburq mühitinin o cümlədən fəal oxucusu olduğu Rusiya Milli Kitabxanasından aldığı zəngin biliklərin böyük təsiri olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin Poçt-Teleqraf Naziri, görkəmli dövlət xadimi Camo bəy Hacınski Sankt-Peterburq Universitetinin hüquq fakültəsini bitirmiş və Rusiya Milli Kitabxanasının fəal azərbaycanlı oxucularından biri olmuşdur. Camo bəy Hacınskinin çox dərin mütaliə dairəsinə, geniş əhatəli biliyə malik bir şəxsiyyət kimi formalaşmasında onun məhz bu Kitabxanadan bəhrələnməsinin ciddi rolu danılmazdır. Həmçinin, Azərbaycan xalqının görkəmli ziyalısı, qabaqcıl dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin Əkinçilik və Əmək Naziri olmuş Əkbər ağa Şeyxülislamov Sankt-Peterburq Yol Mühəndisliyi İnstitutunu bitirmiş və Rusiya Milli Kitabxanasından müntəzəm şəkildə isti-

fadə edərək onun zəngin sənəd-informasiya resurslarından geniş bəhrələnən görkəmli Azərbaycan ziyalılarından biridir. Rusiya Milli Kitabxanasından ciddi şəkildə bəhrələnən qabaqcıl Azərbaycan ziyalıları sırasında eyni zamanda, görkəmli hüquqşünas, qabaqcıl dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin Baş Prokuroru olmuş Aslan bəy Səfikürdskinin də xüsusi yeri vardır. Aslan bəy Səfikürdskinin qabaqcıl ruhlu şəxsiyyət, yetkin ziyalı və uzaqgörən dövlət xadimi kimi formalaşmasında və inkişafında, Sankt-Peterburqun yüksək potensiallı elmi-mədəni strukturlarından və əlbəttə ki, ən aktiv və sevimli oxucularından biri olduğu Rusiya Milli Kitabxanasından əldə etdiyi dərin mütaliə və zəngin biliklərin böyük rolu olmuşdur.

Azərbaycan xalqının Sankt-Peterburq elmi mühitində formalaşmış, burada ali təhsil alaraaq mükəmməl peşə sahibləri kimi yetişmiş, öz xalqına, millətinə və dövlətinə misilsiz töhfələr verən qabaqcıl ziyalıları sırasında həmçinin, Fərrux bəy Vəzirov, Səməd bəy Vəkilov, Mirzə Yusif xan Məmmədbəyov, İshaq bəy Mehmandarov, Teymur bəy Mehmandarov, Baxış bəy Rüstəmbəyov, Fətulla bəy Rüstəmbəyov, Rüstəm bəy Sultanov, Məşədi Əzizbəyov, Zivər bəy Əhmədbəyov, Lütfəli bəy Behbudov, İbrahim Heydərov, Ələsgər bəy Mahmudbəyov, Ağa bəy Mustafabəyov, Şahbaz bəy Rüstəmbəyov, Əbdülqədir Əfəndiyev, Faris bəy Vəkilov, Ağa Əmirov, Əbdülqasım Cəfərov Musa bəy Hacıqasımov, Çingiz İldırım, İsmayıl bəy Lənbəranski, Teymur bəy Məlikaslanov, Miryaqub Mehdiyev, Cavad Həyatov, Cəfər Mövsümov və s. adlarını da böyük minnətdarlıq hissi ilə qeyd etmək lazımdır. Həmin şəxsiyyətlərin hər birinin öz həyatlarının əhəmiyyətli bir zaman kəsiyində mütaliələrinin təşkili və formalaşmasında, bilik və dünyagörüşlərinin dərinləşməsində, bir sözlə, dövrün qabaqcıl fikirli, mütərəqqi ruhlu ziyalıları kimi yetişməsində və inkişafında Rusiya Milli Kitabxanasının özünəməxsus payı olmuşdur.



Sankt-Peterburqun yüksək səviyyə malik elmi-mədəni mühitindən ciddi şəkildə bəhrələnən, burada mükəmməm ali təhsil alan, eləcə də Rusiya Milli Kitabxanasının zəngin resurslarından müntəzəm şəkildə istifadə edən görkəmli Azərbaycan ziyalılarının müasir nümayəndələrindən isə bəhs edərkən, Sankt-Peterburq Universitetinin Hüquq fakültəsinin məzunu, görkəmli hüquqşünas, hüquq alimi, hüquqa dair qiymətli əsərləri ilə ciddi uğurlar əldə edən qabaqcıl şəxsiyyət, hüquq elmləri doktoru, professor İlham Rəhimovun adını xüsusilə qeyd etmək yerinə düşər. Məhz Azərbaycan alimi və ziyalısı İlham Rəhimovun müasir hüquq elminin görkəmli nümayəndələrindən biri və müasir dövrün mütərəqqi-demokratik ruhlu ziyalı kimi yetişməsi və formalaşmasında dönə-dönə müraciət etmiş olduğu Rusiya Milli Kitabxanasının zəngin resurslarının əhəmiyyətli rolu olmuşdur.

Qeyd etmək lazımdır ki, adlarını çəkdiyimiz şəxsiyyətləri biz bu kitabxananın fəal azərbaycanlı oxucuları kimi buradan istifadə edən, bəhrələnən yüzlərlə, bəlkə də minlərlə azərbaycanlı ziyalıların ümumiləşmiş obrazı kontekstində xüsusi olaraq göstərmişik. Çünki onları bilavasitə Sankt-Peterburqda təhsil almış və Azərbaycan xalqının həyatında məhz bu şəhərin mükəmməl elm və mədəniyyət mühitində dərin elmi biliklərə yiyələnərək formalaşmış ziyalılar kimi öyrənirik. Lakin bu, o demək deyildir ki, Sankt-Peterburqda təkcə yuxarıda adları çəkilən ziyalılar təhsil almışlar. Qeyd edilməlidir ki, Azərbaycan xalqının yüzlərlə görkəmli ziyalısı məhz bu şəhərdə yüksək təhsil almışdır və bu proses indiyədək davam etməkdədir. Təkrarən qeyd etməyi zəruri hesab edirik ki, yuxarıda adları çəkilən şəxsiyyətlər burada təhsil alan, bu mühitdə formalaşan Azərbaycan ziyalılarının ən qabaqcıl nümayəndələridirlər.

Eləcə də, Rusiyanın ayrı-ayrı şəhərlərində, vilayətlərində yaşayan, işləyən, təhsil alan çoxsaylı Azərbaycan ziyalıları da heç

20405
M.F.A... adına ... Milli K...

şübhəsiz ki, Sankt-Peterburq mühitindən və bu mühitdə fəaliyyət göstərən, Rusiyanın ən böyük informasiya resurslarına malik geniş ümumdövlət baş milli statusu daşıyan, eləcə də, öz fondunun zənginliyinə görə dünyanın ən böyük kitabxanalarından biri hesab olunan nəhəng bilik və informasiya mərkəzinə-Rusiya Milli Kitabxanasına mütəmadi olaraq baş çəkmiş, öz mütaliələrində, eləcə də apardıqları elmi tədqiqatlarında onun zəngin resurslarından geniş şəkildə istifadə edərək bəhrələnmişlər. Əlbəttə ki, bu onların bir şəxsiyyət və ziyalı kimi formalaşmasına bə inkişafına öz müsbət təsirini göstərmişdir ki, bütün bu faktlar da məhz Rusiya Milli Kitabxanasının bəhs edilən kontekstdə özünəməxsus rola malik olduğunu sübut edir. Haqqında bəhs edilən həmin ziyalıların əksər qismi müxtəlif vaxtlarda Azərbaycan xalqının və dövlətçiliyinin həyatında öz əlamətdar xidmətləri ilə böyük nüfuz qazanaraq yadda qalmışlar.

Həmçinin, Azərbaycanın özündə təhsil almış görkəmli ziyalılarımız, qabaqcıl şəxsiyyətlərimiz də daim bu möhtəşəm bilik və informasiya mərkəzinə gəlmiş, onun zəngin və mükəmməl sənəd-informasiya fondundan bəhrələnmiş,çoxtərəfli informasiya tələbatlarının tam, dolğun və dəqiq şəkildə ödənilməsinə nail ola bilmişlər ki, bütün bunlar da bir daha bəhs edilən kontekstdə Kitabxanın çox ciddi rola malik olmasını sübut edən mühüm faktlar kimi qiymətləndirilməlidir.

Eyni zamanda, qeyd etmək vacibdir ki, Rusiya Milli Kitabxanası ilə Azərbaycan kitabxanaları arasında uzun bir tarixi dövrü əhatə edən ciddi əməkdaşlıq münasibətləri yaranmışdır və burada, xüsusilə, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası və Bakı Dövlət Universitetinin Elmi Kitabxanası ilə yaranmış ciddi əməkdaşlıq münasibətləri müstəvisində əldə edilmiş



uğurları da bəhs edilən kontekstdə əhəmiyyətli fakt kimi yüksək qiymətləndirmək olduqca vacibdir.

Bir daha qeyd etmək yerinə düşərdi ki, bəhs edilən mövzuda Rusiya Milli Kitabxanasının fəaliyyəti onun yarandığı ilk dövrlərdən bu günədək uğurla davam edir və əminik ki, bundan sonra da dünya xalqlarının, o cümlədən Azərbaycan ziyalılarının formalaşmasına, inkişafına və elmi biliklərin əldə edilməsinə öz tohfələrini verəcəkdir.

Göstərdiyimiz faktlara əsasən belə bir qənaətə gəlirik ki, bəşəriyyətin inkişafına, cəmiyyətin tərəqqisinə, insanlığın xoşbəxt gələcəyinə xidmət edən, bəşəriyyətin minilliklər boyu topladığı zəngin elmi biliklərin, möhtəşəm mədəniyyət nümunələrinin nəticələrini özündə əks etdirən çoxsaylı informasiya daşıyıcılarını toplayan, mühafizə edən, nəsildən-nəsilə ötürən, onların ictimai istifadəsini təşkil edən kitabxanalar həm də ayrı-ayrı xalqlar arasında elmi və mədəni əməkdaşlığın yaradılmasında, mədəniyyətlərarası dialoqun bərqərar olmasında, möhkəm dostluq və qardaşlıq münasibətlərinin formalaşdırılmasında müstəsna rol oynamış, ümumbəşəri dəyərlərin keyşiyində durmuş və bu kimi digər müqəddəs vəzifələri həyata keçirmişlər. Heç şübhəsiz ki, həm Rusiya, həm də Azərbaycan kitabxanaları da əsrlər boyu bu iki qonşu, zəngin elmi və mədəni potensiala malik olan qədim xalqlar arasında mədəniyyətlərin keçiricisi və inteqrasiyaedicisi funksiyalarını həyata keşirərək xalqlar arasında mədəniyyətlərarası əlaqənin, elmi əməkdaşlığın, siyasi proseslərdə dözümlülük və qarşılıqlı tolerantlığın bərqərar olmasında ciddi tədbirlər həyata keçirmiş və bununla da müstəsna əhəmiyyət kəsb etmişlər. Tarixi faktlar sübut edir ki, bu proses uzun bir tarixi dövrdə davam etmişdir və heç şübhəsiz ki, yarandığı və fəaliyyətə başladığı ilk vaxtlardan Rusiya kitabxanaları içərisində ən böyük yerə və rola və funksiyalara malik olan Rusiya Milli Kitabxanası da öz ciddi töhfələri-

ni vermişdir. İnanırıq ki, bundan sonra da həmin töhələr Rusiya Milli kitabxanası tərəfindən Azərbaycan və Rusiya xalqları arasında tarixən mövcud olan elmi, mədəni, sosial, iqtisadi siyasi və s. əməkdaşlıq və dialoqun daha da zənginləşdirilməsi və inkişafında özünəməxsus rol oynayaraq geniş əhəmiyyət kəsb edəcəkdir.

## *ƏDƏBİYYAT SİYAHISI:*


1.Rzayev A. XIX əsr Azərbaycan alimləri və mütəfəkkirləri: B.,1969.-142 s.

2.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası (II cilddə) Cild 1.: B.:Lider nəşriyyatı, 2004.-440 s

3.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası (II cilddə) Cild II.: B., Lider nəşriyyatı,2005.-472 s.

4. Azərbaycan Milli Ensiklopediyası (III cilddə) B.:Elmlər Akademiyası nəşriyyatı, 2007.-800 S.

5. Azərbaycan tarixi (VII cilddə) Bakı : Elm, 2007. - 504 s.



**Халил Исмаилов**


## РОЛЬ РОССИЙСКАЯ НАЦИОНАЛЬНАЯ БИБЛИОТЕКА В ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ ИНТЕЛЛИГЕНЦИИ

### РЕЗЮМЕ


Написанная статья охватывает большой период начало истории появления сотрудничества между Российской национальной библиотеки и библиотек Азербайджана. В статье, в частности затронута о достигнутых успехах в контексте серьезных сотрудничества между Национальной библиотеке имени М.Ф.Ахундова, Центральной научной библиотеке Азербайджанской Национальной Академии Наук, научной библиотеке Бакинский Государственный Университет научной библиотеки и Российской Национальной библиотеки.





**Khalil Ismayilov**


## FORMATION AND DEVELOPMENT OF THE AZERBAIJANI INTELLIGENTSIA PROMINENT ROLE NATIONAL LIBRARY OF RUSSIA

### SUMMARY


Written article covers a large period of the beginning of the history of the emergence of cooperation between the Russian National Library and the libraries of Azerbaijan. The article, in particular touched on the progress made in the context of serious cooperation between the National Library named after MF Akhundov, Central Scientific Library of Azerbaijan National Academy of Sciences, Scientific Library Baku State University Scientific Library and the Russian National Library.